**Peşə etikası:**
**Hüquqla əxlaqın kəsişmə nöqtəsi**

Hörmətli oxucular!

Qəzetimizdə işgüzar etika məsələlərinə həsr olunmuş yeni bir guşə açmağımızın başlıca səbəbi müxtəlif sahələri, o cümlədən vergi münasibətlərini əhatə edən peşə fəaliyyətinin hüquqi və əxlaqi aspektləri ilə bağlı əsas məqamları ehtiva edən məlumatlandırıcı yazıları nəzərinizə çatdırmaqdır. Son illərdə işgüzar etika, biznes əxlaqı kimi anlayışlar daha tez-tez işlənməyə və heç şübhəsiz, bu anlayıqların həyatdakı əhəmiyyəti də artmağa başlamışdır. Azərbaycanda, eləcə də digər postsovet ölkələrində nisbətən gec populyarlaşmağa başlamış və bilavasitə sərbəst bazar iqtisadiyyatının mövcud olduğu cəmiyyətlərə aid edilən bu məsələ, əslində, idarəetmə ilə bağlıdır. Qərb ölkələrində biznes etikası anlayışı hüquqla əlaqəli götürülür. Hüquqla əxlaq, mənəvi dəyərlər arasındakı kifayət qədər mürəkkəb səciyyə daşıyan qarşılıqlı əlaqə, son nəticədə, həm hüququn, həm də etikanın zənginləşməsinə öz töhfəsini verir. Əxlaqi və hüquqi tənzimləmənin mərkəzində isə sosial həyatın əsas məsələləri dayanır.

Hüquq ilə əxlaqın kəsişdiyi nöqtələrin, onların əsaslandığı müştərək təməl prinsiplərin çox olmasına baxmayaraq hüquqa heç də həmişə cəmiyyətin bütün mənəvi standartlarının ifadəsi kimi baxmaq özünü doğrultmur. İnsanın yüksək mənəvi keyfiyyətlər daşıması da heç də həmişə onu hüquq qarşısında cavabdehlikdən azad etmir. Ona görə də cəmiyyətdə ciddi hüquqi normalarla yanaşı, iş həyatını tənzimləyən peşə etikası, etik davranış qaydalarına da ehtiyac yaranır. Bu baxımdan, «Dövlət qulluqçularının etik davranış qaydaları haqqında» Azərbaycan Respublikasının Qanunu, eləcə də ayrı-ayrı sahələr üzrə qəbul edilmiş etik davranış normaları, ilk növbədə, cəmiyyətin mənəvi meyarlarına əsaslanır.

Qəzetimizin bu buraxılışından başlayaraq həm işgüzar etikanın müxtəlif aspektləri ilə bağlı ümumi məsələlər, ayrı-ayrı işgüzar dairələrin etik davranış təcrübələri barədə silsilə yazılar verməyi, həm də bilavasitə «Vergi işçisinin etik davranış Kodeksi»ndən çıxarışları diqqətinizə təqdim etməyi planlaşdırırıq. Ümidvarıq ki, bu, hər kəsin öz mənəvi öhdəliklərini daha düzgün qavramasına yardım edəcək. Digər tərəfdən, bu yazıları verməklə, əlbəttə, sizin də mövqenizi öyrənməyin, peşə etikasına ciddi şəkildə riayət olunması, eləcə də onun prinsiplərinin pozulması barədə müşahidələrinizlə tanış olmağın ümumi işimizə - vergi işçiləri ilə vergi ödəyiciləri arasındakı münasibətlərin daha düzgün və yüksək mənəvi dəyərlər səviyyəsində qurulmasına kömək edəcəyinə inanırıq...